**Xalq qəzeti.-**2020.-13 sentyabr.-№185.-S.5.

# Azərbaycan - Türkiyə münasibətləri ən yüksək mərhələdədir

**Əkbər Qoşalı,**
Azərbaycanda Atatürk Mərkəzinin şöbə müdiri, Milli QHT Forumu İdarə Heyətinin üzvü

Azərbaycan - Türkiyə münasibətləri əsasən qardaşlıq münasibətləridir. Bizim başqa qardaşlarımız da var, lakin onlarla sərhəd qonşusu deyilik. Bəzi qardaşlarımız isə yaxınlıq-uzaqlıqdan asılı olmayaraq, arzuolunan səviyyədə dostluq nümayiş etdirə bilmir. Təsəvvür edin, bizimlə soykök ortaqlığı yaxud dil, mədəniyyət eyniliyi olmayan ölkələr bəzən bizi daha açıq müdafiə edərkən, doğma qardaşlarımızdan “bitərəf” və ya susqun qalanlar da olur... Əlbəttə, eyni soy kökdən gəlməyimiz, dil, mədəniyyət ortaqlığımız, bir sözlə, qardaşlıq hüququ bütün hallarda hansısa anlaşmazlığı, hansısa problemi danışıb - barışıb çözməyi vacib bilir, belə də edirik. Lakin Azərbaycan -Türkiyə qardaşlığı o biri qardaşlarımız üçün də örnək olmalıdır.

Bu ilin iyulunda Ermənistanın öz havadarlarına arxalanaraq, Tovuza hücum cəhdi zamanı Türkiyə ilə olan qonşuluq və dostluğumuz çox açıq şəkildə təzahür etdi. Biz özümüz həqiqəti bilirdik, bu dəfə bütün dünya bildi, gördü, qəbul etdi. Tovuz hadisələri zamanı qardaş Türkiyənin Cümhurbaşqanı Azərbaycanın müdafiəsi ilə bağlı çox açıq, birmənalı və sərt mövqe ortaya qoydu. Belə tərəddüdsüz münasibət qardaş ölkənin Xarici işlər naziri, Müdafiə naziri, parlamentin dörd aparıcı partiyası, aparıcı KİV və QHT-ləri - ümumən, türk dövləti və xalqı tərəfindən göstərildi. Ardınca, yüksək səviyyəli qarşılıqlı rəsmi səfərlər, mühüm görüşlər baş tutdu. Azərbaycan - Türkiyə genişmiqyaslı birgə hərbi təlimləri keçirildi. Bugünlərdə isə Naxçıvanda yenidən hərbi təlimlər təşkil olundu.

İki dövlət arasında belə sıx və yüksək səviyyəli görüşlər, təlimlər, rəsmi açıqlamalar heç bir şəkildə təsadüf və yaxud tendensiya deyil. Əlbəttə, bu, bir qanunauyğunluğun ifadəsi olub, yeni dönəmin çağırışlarına cavab vermək haqqımızdır. İndi dünyada “kartlar açılıb” şəklində bir siyasi-diplomatik ovqat hökm sürür. Belə olanda, kimsə bizi qandırmağa, sadəlövh yerinə qoymağa qalxmamalıdır. Biz öz qardaşımızla nə lazımdırsa, onu edirik - daha da artıq işlər görməyə qadirik. Bu yerdə, Azərbaycan Prezidentinin Yunanıstanın yeni səfirinin etimadnaməsini qəbul edərkən etdiyi məşhur çıxışı da xatırlatmaq istərdim. Türkiyə ilə Yunanıstan arasında Şərqi Aralıq dənizi sahəsində bu yaxınlarda baş verən gərginliyə toxunan dövlət başçımız eynən belə dedi: “Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir. Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik. Biz eyni dəstəyi türk qardaşlarımızdan da görürük. Onlar Azərbaycanı bütün məsələlərdə dəstəkləyirlər və biz onları bütün məsələlərdə dəstəkləyirik, o cümlədən Şərqi Aralıq dənizində kəşfiyyat məsələsi ilə bağlı. Mən istəyirəm ki, siz bizim mövqeyimizi biləsiniz”.

Bəli, indi dünyanın dörd yanında adından bəhs etdirən Türkiyə, böyük bir gücdür! Bu güc yalnız Türkiyə vətəndaşlarının deyil, bütün türk dünyasının qürurudur! Aralıq dənizində, Liviyada, ümumən, Afrikada, Suriyada, İraqda və digər bölgələrdə Türkiyənin siyasi-hərbi iradəsini görməzdən gəlmək sadəcə mümkün deyil! Və Azərbaycan bacardığı qədər Türkiyənin yanındadır. Heç şübhəsiz, torpaqlarımız işğal altında olmasaydı, daha böyük miqyasda qardaşlıq dəstəyi göstərmiş olardıq. Elə ona görə də, Türkiyənin Azərbaycan torpaqlarının işğaldan azad edilməsi işinə hərtərəfli dəstəyi də şübhə, tərəddüd mövzusu deyil. Artıq daha çox ictimai-siyasi dairə, sadə vətəndaşlar, gənc fəallar respublikamızda qardaş ölkənin hərbi bazasının qurulması mövzusunu gündəmə gətirməkdədir. Onu da bilirik ki, hər iki ölkənin işbirliyi bütün parametrlər və sahələr üzrə uğurla inkişafdadır. Qardaş ölkələr arasında hərbi işbirliyinin hazırkı durumunu bir sıra məqamlar şərtləndirməkdədir. Örnəyi - Azərbaycanın təhlükəsizlik sənədləri və iki ölkə arasında imzalanmış strateji müqavilələri xatırlada bilərik. NATO-nun ən aparıcı ölkələrindən olan Türkiyə, Azərbaycan Silahlı Qüvvələrinin çağdaşlaşdırılmasına kömək edir - bu da mühüm məqamdır.

Hərbi işbirliyimizdə taktiki-texniki, perspektiv planlar mövcuddur. Yüksək səviyyəli hərbi kadrların hazırlanması, maddi-texniki təchizat, o cümlədən yeni türk silahları ilə təminat məsələləri daxil, etibarlı müdafiə sənayesi sahəsində yeni işbirliyi günümüzün gerçəkliyidir.

Bir daha o inamı ifadə edirəm ki, yaxın gələcəkdə, daha dərin hərbi işbirliyinin şahidi olacağıq. Bu dərin işbirliyindən, ağlı başında olan heç kəsə ziyan yoxdur, hikkəsi imkanlarım qat-qat aşanlar, terrorçu, işğalçı zehniyyətindən uzaqlaşa bilməyən “demokrat libaslı”larsa, özləri bilər - cəhənnəm onlar üçün dəyişməz seçimdir.

Sonda bir məqama da toxunaq. Bugünlərdə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin başçılıq etdiyi nümayəndə heyəti qardaş ölkəyə səfər etdi. Zəngin proqrama malik həmin səfər haqlı olaraq, hər iki ölkə mediasının gündəmində öz yerini aldı.

Hikmət Hacıyev İstanbulda fəaliyyət göstərən beynəlxalq media qurumlarının nümayəndələri ilə görüşərək müzakirələr apardı. Prezidentin köməkçisi özünün sosial media hesabında belə yazdı: “İstanbulda fəaliyyət göstərən beynəlxalq media nümayəndələri ilə görüşmək və açıq dialoq aparmaq çox xoş idi. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, regional və beynəlxalq mövzularda geniş müzakirələr apardıq”.

İstanbul görüşlərinin önəmini vurğulayan Hikmət Hacıyev, KİV-in müxtəlif yönləri üzrə ətraflı müzakirələr aparıldığından, işbirliyi üçün böyük potensialın mövcudluğundan, Türkiyədə son dövrlərdə sənədli və bədii filmlərin hazırlanması sahəsində böyük təcrübə qazanılmasından, qardaş ölkə televiziyalarının, istər texnologiya, istərsə kontent yaradılması baxımından yaxşı imkanlara malik olmasından bəhs etdi. Və bu planda işbirliyi üçün geniş imkanlar və böyük resursların mövcudluğunu bildirdi.

Bu, Türkiyə - Azərbaycan media işbirliyində, informasiya təhlükəsizliyi sahəsində işbirliyində yeni bir mərhələdir. Bu, bizim hər birimizi bir daha Türkiyə - Azərbaycan media işbirliyində yeni mərhələnin əsas məqsədləri, vəzifələri və hədəfləri üzərində dərindən düşünməyə dəvət edir.